# Azad media və erməni kultursidinin ifşası...

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

**Ermənilərin törətdiyi soyqırımlar insanlarımızla məhdudlaşmır, bu barbar tayfası son 30-40 ildə həm Qarbağdakı, həm də Qərbi Azərbaycandakı - Zəngəzurdakı, Göyçədəki, İrəvandakı və başqa tarixi ərazilərimizdəki abidələrə, maddi irsə qarşı cinayətlər törədib. Qarabağda abidələrin, mədəni irsin başına gətirilən oyunlar bütün dünyaya məlumdur.**



Lakin çox təəssüf ki, dünya hələ də bu məsələyə münasibət bildirməyə tələsmir. Deyərdik ki, gecikir. Məsələ burasındadır ki, heç indiki Ermənistan ərazisindəki Azərbaycan abidələrinin qaranlığa bürünən taleyi beynəlxalq qurumları yerindən tərpədə bilmir. Gerçəklik budur ki, bu gün Ermənistanda vaxtilə mövcud olan tarixi abidələr, mədəni irs yoxsa çıxarılıb. Yeganə yoxa çıxarmadıqları və yoxa çıxarmaq üzrə olduqları isə qədim İrəvan şəhərinin tarixi mərkəzi olan Təpəbaşı məhəlləsidir. Onu da dediyimiz kimi Ermənistan hökuməti yer üzündən silməyə hazırlaşır.

**Ermənilərin "farslaşdırdığı" abidələrimiz…**

İrəvanın Təpəbaşı məhəlləsində yeganə salamat qalan abidə Göy Məsciddir ki, onu da ermənilər "fars" məscidi olaraq qələmə verirlər. Bundan başqa, Təpəbaşı məhəlləsinin girişində uçulmuş vəziyyətdə olan Hacı İmamverdi məscidinin qalıqları bu gün də qalmaqdadır. Ermənistan tərəfi bu məscidin də "fars məscidi" olduğunu deyir və dövlət qeydiyyatına "Kond" məscidi adı ilə alınıb. İlk növbədə, arxiv sənədləri və məscidin sahiblərinin Azərbaycan türkləri olduğunu UNESCO-ya təqdim etməklə, məscidin Azərbaycan məscidi adlandırılmasını, xüsusi mühafizəyə götürülərək bərpa edilməsini Ermənistan dövlətindən tələb etməsi məqsədəuyğun olardı. 2009-cu ildə Ermənistan dövləti Təpəbaşıda yerləşən bir neçə abidəni dövlət qeydiyyatına almaq məcburiyyətində qalıb. Bu abidələrdən biri də Hacı İmamverdi məscidi oldu. Həmin məscid "fars məscidi" kimi qeydə alınıb.

Bu barədə informasiyanın dünyaya çatdırılmasında, əlbəttə, əsas rollardan birini mediamız oynamalıdır. Çünki bunlar elə faktlardır ki, hər biri beynəlxalq paltformada yayılmalıdır.

İndiki Ermənistanda Azərbaycana məxsus milli mədəni irslə bağlı informasiyaların yayılmasında, bu irsin təbliğində, erməni vandalizminin ifşasında media nə kimi rol oynaya bilər? Xüsusən də bu məsələ ilə bağlı beynəlxalq platformada mediamızın görəcəyi işlər nədən ibarət olmalıdır?

Onu vurğulayaq ki, Ermənistanda movcud olmuş abidələrimizin vəziyyəti ilə bağlı məsələlərə hər zaman mediamız reaksiya verib.

**"Bu gün bu məsələdə medianın üzərinə çox böyük yük düşür"**

Filologiya üzrə fəlsəfə doktoru Qiymət Məhərrəmli "Bakı-Xəbər"ə bildirdi ki, ermənilər həm Qarabağda, həm də Qərbi Azərbaycan ərazisində dəhşətli kultursid törədiblər və ermənilərin həyata keçirdiyi mədəni soyqırımın ifşa edilməsində Azərbaycan mediası çox önəmli rol oynamalıdır. O, qeyd etdi ki, bu gün media onusuz da bu istiqamətdə davamlı yazır, faktlarla ermənilərin cinayətlərini ifşa edirlər, amma bu yalnız ölkə daxilində deyil, ölkə xaricində də davam etdirilməlidir. Q.Məhərrəmlinin sözlərinə görə, erməni şovinistləri, terrorçuları tərəfindən mədəni və dini irsimiz məhv edilib və bunu da media vasitəsilə dünyaya yaymalıyıq. "Azərbaycan mediası hər zaman bu məsələdə çox diqqətli və həssas olub. İndiyə qədər mediamız bu istiqamətdə böyük işlər görülüb. Ermənilərin Azərbaycan mədəni isrinin başına açdığı oyunlar, onlara qarşı saxtalaşdırma kampaniyası aparması və başqa məsələlər daim mətbuatımız tərəfindən işıqlandırılıb. Amma hesab edirəm ki, bizim media bu sahədə fəaliyyətini daha da gücləndirməlidir. Ermənilərin abidələrimizə qarşı törətdikləri mədəni genosidin ifşa edilməsi üçün çoxşaxəli fəaliyyət göstərilməlidir. Bu gün bu məsələdə medianın üzərinə çox böyük yük düşür. Ona görə ki, bu kimi məsələlərdə mətbuat həmişə aparıcı rol oynamalıdır, necə ki, oynayır da. Bu gün çox aktual olan məsələlər var ki, media bu sahədə daim aktiv olmalıdır. İndiki Ermənistan ərazində Azərbaycan abidələrinə qarşı soyqırım törədilib və mətbuatınız bu abidələrin hər biri barədə ayrıca yazı hazırlayıb yerli və xarici mətbuatda yaymalıdır. Qoy dünya görsün ki, ermənilər Qəribi Azərbaycandakı Azərbaycan abidələrini məhv edib. Bilirsiz ki, tarixi Azərbaycan ərazisi olan Ermənistanda həm alban-xristian, həm islam, həm də onlardan qədim dövrlərə aid çoxlu abidələr olub. O abidələrin əksəriyyəti hazırda yoxdur, albanqıpçaq abidələri erməniləşdirilib. Təəssüf ki, bəzilərini də "erməni abidəsi" kimi UNESCO-ya daxil ediblər. Bu gün mediamız alimlərin iştirakı ilə bu məsələləri araşdırmalı və beynəlxalq ictimaiyyəti məlumatlandırmalıdır".

**"Ermənilərin törətdiyi mədəni soyqırımın ifşasında mediamız böyük rol oynayıb"**

Q.Məhərrəmli qeyd etdi ki, Azərbaycan KİV-ləri, xüsusən də xarici dillərdə nəşr olunan və yayımlanan mətbuat subyekltləri vasitəsilə bu sahədə işlər gücləndirilməlidir. "Doğrudur, media ermənilərin abidələrimizə qarşı törətdiyi kultusid barədə indiyə qədər saysız informasiyalar, yazılar hazırlanıb. Ermənilərin törətdiyi mədəni soyqırımının ifşasında mediamız böyük rol oynayıb. Bu gün vacib olan odur ki, İrəvanın tarixi mərkəzi olan Təpəbaşının harayını dünyaya çatdıraq. Ermənilər bu qədim yaşayış məhəlləsini dağıdıb mıhv edir. Təpəbaşı məhəlləsinin xilası üçün beynəlxalq dəstəyə ehtiyac var. Xarici dillərdə olan media orqanları bu sahədə xüsusi aktivlik göstərməlidir. Eyni zamanda da beynəlxalq əməkdaşlıq əlaqələri olan media institutları da bu sahədə fəaliyyətlərini gücləndirməlidir. Hesab edirəm ki, bu milli-mənəvi məsələdə xalq olaraq həmrəy olmalıyıq. Yenə də deyirəm, oradakı abidələrin hamısının adı, dövrü, taleyi ilə bağlı mətbuatda yazılar getməli, ayrıca informasiya kataloqu hazırlanmalıdır"- deyə alim bildirdi.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**